**Abort-müasir cəmiyyətin aktual problemi kimi**

Biz qadın deyəndə yalnız onun zahiri gözəlliyi, cazibədarlığı deyil, həmçinin ana olmasını, dünyaya övlad gətirməsini gözümüz önündə canlandırırıq. Qadının varlığı yer üzündə insan nəslinin daim var olması və coxalmasıdır. Məhz buna görə də müdriklər "ana haqqı- tanrı haqqıdır"- dır deyiblər. Məhəmməd Peyğəmbər isə "Cənnət anaların ayağı altındadır" deyərək qadına məhz bu yeri layiq görmüşdür. Hər dəfə uşaq dünyaya gələndə onun valideynlərini təbrik edirlər. Lakin son zamanlar (dünyanın bir çox ölkələrində bu tendensiya mövcuddur) qadın hamilə olanda, həm özü, həm də ailə üzləri narahat olur, nə edəcəklərini, necə qərar verəcəklərini düşünürlər. Çıxış yolunu isə çox zaman abortda görürlər.

Hal-hazırda dünyada ən aktual problemlərdən biri abortlardır. Aborta münasibət müxtəlifdir. Bir qrup insanlar buna ailənin öz şəxsi qərarı olaraq hörmətlə yanaşdıqlarını bildirirlər. Digər qisim insanlar abortu tibbi və psixoloji cəhətdən zərərli olduğunu bildirirlər. Ümumiyyətlə, ayrı- ayrı ölkələrdə abortlara – yəni hamiləliyin dayandırılmasına müxtəlif yanaşmalar mövcuddur. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tamamilə abortu qadağan edən ölkələr: Bu qrupa daxil olan ölkələr aborta cinayət kimi baxır. Həmin ölkələr: Əfqanistan, Banqladeş, Anqola, Venesuella, Qvatamella, Honduras, Misir, İndaneziya, İraq, İran, İrlandiya, Yəmən, Kolumbiya, Livan, Liviya, Mavritaniya, Mali, Nrpal, Nikarauqa, Oman, Paraqvay, Yeni Qvineya, Salvador, Suriya, Çili – burada istisna hal odur ki, əgər qadının həyatı risk altındadırsa, o zaman abort edə bilər.
2. Tibbi göstəricilərə əsasən və istisna hallarda aborta icazə verən ölkələr: Əlcəzair, Argentina, Boliviya, Braziliya, Qaana, İsrail, Keniya, Kosta-rika, Marokko, Meksika, Niqeriya, Pakistan, Peru, Polşa, Uruqvay. Məsələn, 1985-ci ildə İspaniyada cinsi zorakılıq halı baş verərsə, qadının fiziki və psixi sağlamlığı hamiləliyi davam etdirməkdə çətinlik yaratdığı hallarda aborta rəsmi şəkildə icazə verilir.
3. Tibbi və sosial-iqtisadi göstəricilərə əsasən aborta icazə verilən ölkələr: İngiltərə, Hindistan, İslandiya, lüksemburq, Finlandiya, Yaponiya kimi ölkələrdə yalnız tibbi və sosial-iqtisadi göstəricilər əsasında, həmçinin zorakılıq hallarında abort icazə verilir.
4. Azad abortlar: Nisbətən liberal olan ölkələrdə isə qadın hamiləliyini dayandırmaq haqqında qərarı müstəqil verə bilər. Burada əsas yanaşma qaqdının

sağmamığıdır. Hamiləliyin erkən dövrdə dayandırılması, yəni aborta sərbəst şəkildə icazə verilməsi əsasən MDB Baltik ölkələrində, Avstraliya, Avstrya, Albaniya, Belçika, Bolqarstan, Macarıstan, Vyetnam, Almmaniya , Yunanıstan, Danimarka, İtalya, Kamboca, Kanada, Koreya Xalq Respublikası, Kuba, Monqolustan, Hollandiya, Norveç, Rumınya, Sinqapur, Slovakiya, ABŞ, Tunis, Fransa, Çexiya, İsveç, Cənubu Afrika Respublikası.

Sovet hökuməti isə dünyada ilk dəfə abortları leqallaşdırıb. «Qadınların sağlamlığının qorunması haqqında» qanunda abortların pulsuz və könüllü olması əksini tapıb. Sovet dövründə abortdan ölən qadınların sayı statistikada azaldılırmış və 4%-dən 0,28%-ə qədər endirilirmiş. 1936-cı ildə qəbul olunmuş «Abortların qadağan edilməsi, zahılara maddi yardımın artırılması, çoxuşaqlı ailələrə dövlət yardımının verilməsi, doğum evləri, uşaq bağçaları və körpələr evi şəbəkəsinin genişləndirilməsi, aliment ödənilməməsinə görə cəzanın artırılması və boşanmalar barədə qanunvericilikdə bir sıra dəyişikliklərin edilməsi barədə» qərarla abort məhdudlaşdırıldı. Bu isə kriminal abortların və öz-özünü abort etmələrin sayını artırdı. 1940-cı ildə şəhərlərdə 2 mindən çox qadın abortla bağlı həyatını itirmişdi. Nəticədə abort edənlərə qarşı «uşaq qətli»nə görə cinayət işi açılmışdı. 1955-ci ildə isə «Abortlara qadağanın qaldırılması haqqında» fərman çıxmışdı. Rusiyada abortun pik həddi 1964-cü ildə olmuşdu: 5,6 mln.1980-ci illərin sonunda SSRİ abortun sayına görə dünyada birinci yeri tuturdu.

Ötən əsr ərzində bütün dünyada abort olunan uşaqların sayı doğulanların sayından çox olub. Rusiyada hər 81 doğuşa 100 abort düşür. Ukraynada isə 1999-cu ildə 10-14 yaşlı qızlar 500, 15-17 yaşlı qızlar isə 35 000 abort etdiriblər. Bu ölkədə qadınların sonsuzluğunun 70-80%-nin erkən abortlarla bağlı olduğu müəyyənləşdirilib. Ukraynada ölü uşaq doğan qadınların 95 %-i əvvəlki uşaqlarını abort etdirdiklərini bildiriblər.

2003 - cü il 11 avqustda RF Hökümətinin qərarına görə hamiləliyin dayandırılmasının sosial göstəriciləri siyahısı 13 maddədən 4 maddəyə salınmışdır. 2009-cu il 9-16 iyul tarixlərində Rusiyada Sosial - mədəni təəşəbbüslər Fondu (RF-nın keçmiş prezidenti S.V.Medvedevin həyat yoldaşı bu fondun sədridir.) tərəfindən “ANA, mənə həyat ver” adlı aksiya keçirilmişdir. Bu

aksiya doğulmamış uşaqların həyatının saxlanılması və qadının sağlamlığına istiqamətlənmişdir.

Diri doğulan uşaqların kifayət qədər olmasına baxmayaraq, abortların sayına görə dünyada MDB ölkələri hələ yüksək yerdə qərarlaşıblar. 2001-ci ildə Rusiyada 1 milyon 320 min uşaq anadan olmuşsada, 1milyon 800 min abort olunmuşdur. BMT nin məlumatlarına görə 2004-cü ildə Rusiya abortların sayına görə birinci yerdə olmuşdur. Hər nin nəfər qadına 53 abort düşürdü. 2006-cı ildə Rusiyada 1 milyon 582 min abort olmuşdur, onlardan 10%- i 19 yaşadək olan qadınların payına düşür. RF Statistika Komitəsinin verdiyi məlumatlara əsasən 2007-ci ildən abortların sayı azlmaqdadır. 2007-ci ildə 1 milyon 479 min, 2009-cu uldə 1 milyon 292,4 min abort olmuşdur. Son 20 ildə Rusiyada 20 milyon abort olmuşdur. 2011-ci ildə 1 milyon 200 min abort olmuşdur. ABŞ-da 2008-ci ildə hər 100 doğuşa 23,4 abort olmuşdur.Hal–hazırda Türkiyə, Ukrayna, Baltika ölkələrində də abortun qadağan olunması məsələsi müzakirə olunur.

2008-ci ilin statistikasına görə Avropa ölkələri arasında hər 10 000 nəfər qadına düşən abortların sıralanmasına görə Rusiya 87, Rumınya 59, Böyük Britaniya 35, İspaniya 25, İtalya 20, Almaniya 14 nəfər olmuşdur. Dünyada abortların 22%-i inkişaf etmiş, 78 %-i isə inkişaf etməkdə olan ölkələrin payına düşür. İnkişaf etmiş ölkələrdə planlaşdırılmış hamiləlik - 51%, abortlar – 36 %, planlaşdırılmamış hamiləlik isə - 13%-dir. İnkişaf etməkdə olan ölkələrdə planlaşdırılmış hamiləlik – 64%, abortlar-20%, planlaşdırılmamış hamiləlik isə- 16%-dir. İnkişaf etmiş ölkələrdə il ərzində 28 milyon, inkişaf etməkdə olan ölkələrdə isə il ərzində 182 milyon abort edilir. 2001-ci ildə Fransanın Ali Apellasiya Məhkəməsi əlil uşağın doğulmaması haqqında qərar çıxarmışdır. Əgər qadına əlil uşağı abort eləməyə qoymayıblarsa, o zaman həmin əlil uşağın kompensasiya almaq hüququ vardır.

BMT-nin sağlamlıq hüququ məsələləri üzrə Azərbaycan məruzəçisi Anand Hrover qeyd etmişdir ki Azərbaycan abortların sayına görə lider ölkələrdən biridir.Bu bir tərəfdən uşağın cinsiyyəti ilə bağlıdırsa digər tərəfdən isə cinsi və reproduktiv sağlamlıqla əlaqədar Dövlət proqramlarının catışmamazlığı ilə izah olunur. Müasir dövrdə dunyada abortların səbəbləri aşagıdakı kimi müəyyənləşdirilmişdir:

**40% qadinların öz arzusu;**

**25% yaşayış və həyat tərzi göstəricilərinə gorə**

**23% sosial göstəricilərə görə**

**12% tibbi gostəricilərə görə**

Qadınlar abort edəndə sənədlərdə öz arzusu ilə abort etdiklərini qeyd edirlər, lakin bilirik ki, qadınlar bir cox hallarda aborta məcbur edilirlər. RSR-1 qlobal proyektin cərcivəsində Azərbaycanda reproduktiv saglamlıq və ailə planlaşdırılması zamanı müasir vasitələrdən istifadə ilə bağlı tədqiqat kecrilmişdir.

Qrupun rəhbəri Rebeka Patsikin fikirlərinə görə tədqiqat zamanı müəyyən olunmişdur ki, abortlarin səviyyəsi yuksək və kontraseptivlərdən istifadə isə aşağı səviyyədədir. 1000 nəfər arasında kecrilmiş sorguda həm kişilər, həm də qadınlar arzuolunmaz hamiləliyin aradan qaldırılmasında abortu daha təhlükəsiz hesab edirlər nəinki digər vasitələr . Səhiyyə nazirliyi abortlar nəticəsində son iki ildə Azrbaycanda ölən olmadığını bəyan etsə də, Ümumdünya Səhiyyə Təşkilatının araşdırmalarına görə, hər il dünyada 70 mindən artıq qadın məhz abort nəticəsində ölür. Bunun başlıca səbəbi qadınların riskli hesab edilən abortlara meyllənməsidir. Risqli abortlar adətən 12 həftəlik və daha böyük hamiləliyin süni şəkildə pozulmasıdır ki, həkimlər bunu qadın üçün ciddi təhlükə sayırlar.

Abortların müxtəlif səbəbləri vardır. Bəzi qadınlar ailə planlaşmalarında ikinci , üçüncü və daha çox uşağın olmasını nəzərdə tutmurlar. Buna səbəb kimi şəraitin olmamasını, evin olmamasını, işsiz oldularını (həm özlərinin, həm də ərlərinin) göstərirlər. Bu siyahıya cinsinə görə hamiləliyin süni şəkildə pozulmasını da aid etmək olar. Bu gün selektiv abort dünyanın ən ciddi problemi sayılır. Azərbaycan da bu problemdən kənarda qalmayıb. Cinslər üzrə əhalinin ümumi sayına nisbətən 0-17 yaş arasında uşaqların 1996-ci ildə oğlanlar - 39,5%, qızlar – 36,1%, 2001-ci ildə oğlanlar - 37,6%, qızlar -36,4%, 2006-cı ildə oğlanlar - 33,1%, qızlar- 30,6%, 2011-ildə oğlanlar - 29,8%, qızlar- 26,0%. 2012-ci ilil birinci yarısıda isə oğlanlar -29,4%, qızlar- 25,6% olmuşdur.

Əgər uşağın cinsiyyəti qızdırsa, hamilə qadınlar ya həyat yoldaşı ya da qaynanaları tərəfindən təzyiqə məruz qalırlar. Bəzən onları boşamaqla qorxudurlar. Lakin əgər biz həm tibbi, həm də dini cəhətdən artıq illərdir ki, təsdiqini tapan sadə bir məsələni maarifləndirmə yolu ilə insanlara başa sala bilsək, onda bilərlər ki, uşağın cinsiyyəti kişidən asılıdır. Burada qadın heç bir rol oynamır, o yalnız yetişdirir.

"Normada hər doğulan 105 oğlan uşağına 100 qız uşağı düşməlidir. Azərbaycanda isə artıq kəskin fərqlənmə var. Hər 112 oğlana 100 qız uaşğı düşür. Bu da demoqrafik problem olaraq meydana çıxır. Azərbaycan qanunvericiliyi də abortları qadağan etmir. Abortlar qanuni sayılır və onların 6 həftəlik müddətə qədər ambulatoriya şəraitində, 6 həftədən 12 həftəyədək müddətdə isə yalnız stasionrada aparılmasına icazə verilir. Amma bu qanun sovet dövründən qalma qanundur.

Rəsmiləşdirilmiş məlumatlara görə, 1995-ci ildə ölkəmizdə abortların sayı 25228, 2000-ci ildə 17529, 2002-ci ildə 16635 olub. 1995-ci ildə 630, 2000-ci ildə 572, 2002-ci ildə isə 868 nəfər hələ 19 yaşa çatmamış qadın abort elətdirib. Rəsmi rəqəmlərə nəzər yetirsək, deməli, 3 ildə təkcə abort edən 19 yaşlı qadınların sayı 2070 nəfər olub. Azərbaycanda ən çox 25-29 yaşlı qadınlar abort elətdirirlər. Belələrinin sayı 3 il ərzində 17425 nəfər olub. 35-49 yaşlı qadınların payına isə 3 il ərzində 10488 abort düşüb. Buradan belə nəticə cixarmaq olar ki , Azərbaycanın müxtəlif şəhər və kəndlərində müxtəlif maarifləndirici tədbirlər kecirmək məqsədəuyğundur. Azərbaycanda ötən il 27 790 qadın abort etdirib. Hərçənd, 2010-cu ildə bu rəqəm 26 801 olub. Statistika göstərir ki, ölkədə abortların sayı hər il artır. Məsələn, 2003-cü ildə abort edənlərin sayının 16 912 olduğunu nəzərə alsaq, 9 il ərzində abort faktının azı 11 min artdığı məlum olur. Bu hələ rəsmi statistikadır. Nəzərə alsaq ki, tibb müəssisələrindən kənarda, bəzən evlərdə də bu gün abortlar həyata keçirilir, onda mənzərə daha qorxulu olur.

Belə ki, hazırda acıq aydın görünməsə də, bu gələcəkdə demoqrafik problemə cevrilə bilər. Qeyri- rəsmi statistikaya görə 100 hamilə qadından 30-u abort etdirir. Bu isə abortların səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Sosioloqların fikrinə görə, əgər bu templə getsə, 2050-ci ildə Azərbaycan Əhalisinin 12 milyona çatması çətinləşə bilər. Həm sosioloqlar, həm də həkimlər qeyd edirlər ki, həm

kişilər, həm də qadınlar öz reproduktiv sağlamlıqlarının qeydinə qalmırlar. Fikrimizcə, əhalinin müxtəlif yaş qrupları arasında, orta və orta ixtisas

məktəblərin yuxarı sinif şagirdləri və tələbələri, eləcə də, ali təhsil müəssisələrinin tələbələri arasında bu məsələ ilə əlaqədar mariflәndirici tədbirlərin keçirilməsi vacibdir. Eyni zamanda, abort məqsədi ilə qadın məsləhətxanalarına, xəstəxanalarına müraciət edən hamilə qadınları fikrlərindən daşındırmaq üçün həkimlər abortun fəsadları, psixoloqlar isə bunun psixi cəhətdən törədə biləcəyi problemləri onların nəzərinə çatdırmalıdırlar. Abort kabinetlərində abortun qadın sağlamlığına mənfi təsirlərinə aid plakatlar, fotolar və digər təbliğat vasitələri olsa, bu aborta hazırlaşan qadına müsbət mənada təsir edə bilər. Bundan əlavə sosial çarxların hazırlanması və KİV- bu məlumatların daha ətraflı işıqlandırılması da zəruri məsələlərdəndir. Həmçinin bu problemə dair filmlərin çəkilib televiziya ekranlarında, internet saytlarında verilməsi də yaxşı olardı.

İcraçı: AynurVeysəlova